# O, qara, əyri bulud



***Qəşəm Nəcəfzadə***

**Hekayə**

Atam dedi ki, artıq örüşdə ot yoxdur, at yıxılsa dişi çıxar, gərək sabah qoyunları Qaranlıq dərəyə endirək. Qaranlıq dərə Kəlbəcərdədir, Lilpər bulağının Laçın tərifində, yalın o üzündə, Qulalıda.

Qaranlıq dərə çox qorxuludur. Nadir hallarda ora sürünü endirərlər. O qədər dərindi, içindən ağ köpüklü çay axmasaydı, heç görünməzdi. Elə bil dərənin dibinə qar yağıb.

Anam axşamdan pendir-çörək, soyutma kartof, yumurta hazırladı, bağlamaya büküb, kiçik heybəyə qoydu, mən də aşırdım çiynimə.

Biz axşama qayıtmalıydıq.

Qonşu fermaların yanında keçəndə bizim sürüyə xeyli qoyun əlavə elədilər. Hamı bilirdi ki, biz sürünü dərəyə aparırıq, dərədə ot bax, burdan, dizdəndi. Birinci Nənəqız xalam bir erkəyi ayırıb qatdı sürüyə ki, uşağın qurbanıdı, qoy yaxşı yeyib kökəlsin. Sonra Nüsrət dayı da 4 baş qoyun gətirdi ki, bu payız kiçik qızın nişanıdır. Axırda Babalı dayı da 19 baş qoyun gətirdi ki, bu da uşağın instituta qəbul puludu.

Biz tərəkəmələrdə hər şey qoyunla ölçülür. Demək olar ki, pul burda işləmir. Məsələn, bir evin arandan yaylağa qaldırılma haqqı bir qoyun eləyir. Kənddə işıqpulumuz bir illik bir qoyunun haqqınadır. Mamaça uşağın birini bir yanı balalı qoyuna tutur. Bir dəfə Cəlal dayımı polislər tutmuşdu, onu 5 inəyə, 13 şişəyə (1 yaşlı qoyun) qurtardılar. Bir toyuq iki kilo qənd eləyir. Əsgərlikdən uşağı birdəfəlik saxlatmaq 50 baş qoyunla həll olunur. 25 baş qoyuna əsgər gedən uşağı Padamdarda saldırmaq mümkündür. Uşağı əskərlikdə yeməkxanaya işə düzəltmək o yannı-bu yannı 6 baş qoyuna rahat başa gəlir. Bəzən toylarda nəmər əvəzinə qoyun yazdırırlar. Bir sözlə, bizim fermada qiymət vahidi qoyundur. Bir dəfə Səməd dayım Kəlbəcərin taxtasından Lilpər bulağına piyada gəlirmiş. Yolda bir "Pobeda" dayanır, Səməd dayıya deyir, otur. Heç vaxt rahat maşına minməyən Səməd dayı arxa oturacaqda uşaq kimi atılıb düşür və deyir: "Oyy, Ay Allah, nə yumşaqdır?!". Axırda sürücüyə deyir, ay bala, bu maşını neçəyə almısan? O da deyir, 10 min manata. Səməd dayı soruşur ki, ay oğul, qoyunla bu qiymət neçə eləyir? O da deyir ki, 100 erkək. Səməd dayının gözü çıxır kəlləsinə, deyir, ayə, köpəyoğlu, sən hansı fermanı dağıtmısan? Mən beş oğlumla 20 ildi bu çöllərdə sərgərdanam, it zülmü çəkirəm heç 50 erkək qazana bilməmişəm. Sən demə, bu da olur İmişli rayon prokuroru, qoyun kəm-kəsiri ilə bağlı bizim yaylağa gəlibmiş.

Prokurorun şərəfinə mərasim qurulur, əvvəlcə ortaya qırmızı stol qoyulur. Sədr, partkom, prokuror qırmızı stolun arxasında oturурlar. Qırmızı stol tərəkəmələr üçün hökümət deməkdir. Stolun üstündə vazda qırmızı alma qoyublarmış. Səməd dayının gözü də almada... Prokuror Əliqulular kəndinin sosial inkişafından danışır, gələcək uğurlarını qeyd edir. Hazırkı nöqsanların aradan qaldırması yollarından danışır. Nəhayət, söhbət bitir. Prokuror soruşur ki, kimin sualı var? Səməd dayı əlini qaldırır. Hamı deyir, görən Səməd nə deyəcək? Prokuror deyir, buyur. Səməd dayı deyir ki, olar, almanın birini yeyim? Yəni Səməd dayı üçün söz-möz boş şeydi, əsas yeməkdi.

Səməd dayının bir sözü də kəndimizdə məşhurdur: əgər yeməyi çeynəyirsənsə, hələ sənin deyil, boğazdan keçdisə, sənindi!

Sözüm bunda yox. Atamla sürünü Qaranlıq dərəyə tərəf aparmaqdayıq. Anam çox dedi, Qəşəmi aparma. Uşaqdı. Birdən-ikiyə o dərəyə düşməyib. Atam əhəmiyyət vermədi. Özüm etiraz etsəydim, atam bərk acıqlanardı.

Bir dəfə qonşunun uşağına döyülməyimə görə atam mənə karlı bir şilə vurdu. Lap sonralar institutun 4-cü kursunda oxuyanda anama bir qızı sevdiyimi demişdim. Anam da atama dedi, atam etiraz etdi ki, sənə çoban qızı alacam! Dedim, almıram. Atam əl ağacını götürdü, mən qaçıb yükün dalına girdim, yük aşdı. Atamın ağacları döşəklərə dəyib toz çıxartdı. Anam mənim yox, döşəyin hayına qaldı: "Bu nə tozdur belə."

Atam bildi ki, mən çıxıb şəhərə gedəcəm, ona görə də dikdaban ayaqqabımı geyinib getdi qoyuna. Ona görə belə etdi ki, o, gələnə kimi şəhərə getməyim və gəlib axşam mənimlə barışsın.

Atam keçiləri qabağına qatıb aparırdı, qoyunlar da onun dalınca rahat gedir, mən arxada qalanları qovaraq sürüyə qatırdım.

Qoyunun qabaq hissəsi dərəyə tökülməkdə idi. Tozanaq ətrafı bürümüşdü. Aşağı endikcə vahimə məni bürüyürdü. Eniş o qədər sərt idi ki, oturub sürüşürdüm. Bəzən elə olurdu, qoyunlar dığırlanır, gəlib mənə dəyirdi və ya başımın üstündən aşırdı. Keçilərin heç vecinə deyildi, elə bil burda doğulub, burda böyüyüblər. Balaca daş qırıqları güllə kimi aşağı diyirlənirdi. Dərənin dibi çox ensiz idi. Balaca vadisi görünürdü. Hiss edirdim ki, atam da peşman olub, amma sürünü geri qaytarmaq da çətin idi. Aşağı endikcə bürkü artırdı. Dərənin dibinə çatanda qoyunlar mələşməyə başladı. Sanki qələbəni qeyd edirdilər. Elə bil onlar indiyə kimi səslərini udmuşdular. Səssizlikdən adamın qulağı uğuldayırdı və aradabir uzaqda güllə səsləri eşidilirdi. Atam dedi, onlar Beyləqan ovçularıdır, dağ keçisi ovlayırlar. Hər tərəf yamyaşıl idi. Qoyunlar otun içində itib batırdı. Atam qələbəsinin təntənəsini qeyd edirmiş kimi bir qaya parçasına dirsəklləndi və ilk dəfə mehriban səslə dedi:

- Qorxdun, başına dönüm?

Yanına gəldim, üzümü sırıqlısının qoluna söykədim.

Atam ilk dəfə öz atasından mənə danışmağa başladı: "Atam güclə yadıma gəlir. Boz atımız vardı, bir gün atam məni qaldırıb onun üstünə qoydu və atın üstündən o üzə yıxıldım. Vəssalam! Atamdan yadımda ancaq bu qalıb. Sonra atamı tutub güllələdilər. Deyəsən 1946-cı ildə.

Atam məni çayın ortasında iri bir qayanın üstünə çıxartdı. Qayanın ortasında su şırnağı təzyiqlə fontan vururdu. Su qaynar idi. Atam dedi, bu su Kəlbəcər "İstisu"yunun damarından ayrılan bir xətdir. Həmin daşın üstündə oturub atamla çörək yedik, süfrəmizə çayın qırağından nanə, yarpız, quzuqulağı, baldırğan yığıb gətirdik. Evə gətirmək üçün bir baldırğan şələsi düzəltdim.

Atam atasını hey yada salmağa çalışırdı. Məhz elə burda, bilmirəm niyə? Evdə bir dəfə də olsun söhbət salmazdı. Bəlkə biz dünyanın dibinə düşmüşük. Bəlkə bura ən yadda qalan yerdir. Bəlkə atam ürəyindəkiləri danışmaq üçün məni bura gətirib.

Atamdan soruşdum:

- Sən heç bura qoyunları oturmağa gətirmisən?

- 1942-ci Ildə. Atamla. 1946-cı ildə atamı tutdular. Kolxoz sədri tutdurdu. 60 baş qoyun verdik, yenə buraxmadılar. O vaxtdan gəlməmişəm bura, indi 1976-cı ilin yayında səninlə gəldim...

Sonra atam ağladı. Əllərinin arxası ilə gözünün yaşını silə-silə dedi ki, indi atamı tutduran kişinin oğlu bizim kolxoz sədridir. Sən yaxşı oxu, kolxoz sədri ol.

Niyə atam bunu başqa vaxt demir, iki dağın arasında deyir. Bəlkə insan ayağı az-az dəyən bu yerdə ilahi bir sirr vardı.

Atam əlini qaşının üstünə qoyub göyə baxdı və məni yanına çağırıb dedi:

- O əyri, qara buludu görürsən? Yerdən yavaş-yavaş qalxır, Alagöllərdən su götürür. Əyri quyruqlu bulud fəlakətli yağışdı. Burda qalsaq, sel bizi aparacaq.

Atamın qəribə bir xasiyyəti vardı. Nəyi bilirdisə, mənə öyrədirdi. Məsələn, o mənə bir dəfə gecəyarı göydə 6 rəqəminə oxşar bir ulduz silsiləsini göstərib dedi, bax o gördüyün karvanqıran ulduzdur. Bu ulduzlar gecənin bir aləmində məsələn, saat 3-4 arası o qədər işıqlı olur ki, adam elə bilir dan sökülür. Karvanbaşı aldanıb karvanı yola çıxardır və soyuqdan hamsı məhv olur. Atam deyirdi ki, bu ulduzu ona atası, atasın da babası tanıdıbmış. Mənə deyirdi ki, sən də öz oğluna o ulduzu göstərərsən. Deyərsən ki, baban belə deyirdi.

Mən göyə bir də baxdım, bu bulud vergülə oxşayırdı, vergüldən başqa bir şey deyildi. Axı atam bundan da qara zəhmli buludlar görmüşdü. Amma qorxmamışdı. Demək, bu cür buludlar atama yaxşı tanışdı. Qoyunu dərədən çıxartmağa başladıq. Dərəni çıxmağa az qalmış atamın quzu vaxtı mənə verdiyi sarıkürə qoyun sürünün arxası tərəfdə, dərənin başına çıxmağa 10 addım qalmış dayanıb mələdi. Nə qədər elədim gəlmədi, ərindim aşağı düşməyə. Balaca bir daş götürüb qoyuna atdım. Daş qoyunun qulağının dibinə dəyən kimi diyirləndi dərəyə. Dərəni duman tutmuşdu. Yağış artıq bizi islatmışdı. Atam sürünü qıylayıb təzədən dərəyə doldurdu. Çatdıq ki, sarıkürə qoyun qan içindədir. Atam qoyunu daş mağarada kəsib soydu. Tez-tez ildırım çaxırdı. Atam dedi, kahalar ildırımı çəkən olur. Çıxıb yağışın altında dayandıq. Atamdan bir az aralanmışdım ki, elə bil dərəyə od töküldü, qəflətən yıxıldım. Ayılan kimi atamı ayaq üstə görmədim. Bir az irəli gedib gördüm ki, atam yerə yıxılıb titrəyir. Atamı ildırım vurmuşdu. Yıxılanda ayaqqabıları ayağından çıxmışdı. Dabanından qan açılmışdı. Gözləri, üzünün dərisi bir yerdə dayanmırdı, səyriyirdi. Mən fermaya qaçdm, gördüm, fermada ağlaşmadı. Sən demə, Saday dayını da ildırım vurub. Hər şeyi anama danışdım. Hamı Qaranlıq dərəyə tərəf yüyürdü, atamı boğazına qədər torpağa basdırdılar. Gecəni dərədə qaldıq. Səhəri Laçından bir kürd həkimi gətirdilər. Atama iynə vurdu. Zəhmət haqqı kimi bir qoyun verdik. Həkim dedi, Allahın sizə onda yazığı gəlib ki, dabanı partlayıb, enerji dabanından çıxıb.

Atam mənə gülümsünüb dedi, oğlum, həmişə özünü balaca qara əyri buluddan qoru, o bulud bütün dünyanı dolaşır- sonra atam bir balaca daşa dirsəkənib sözünə davam etdi- o buludu mənə atam göstərirmişdi , atama da babam deyibmiş. Bax sən də öz balana de, ha...